**Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Standartlaşdırma haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 503 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 28 mart 1997-ci il
№ 25

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1997-ci il 28 mart tarixli 25 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları [1]

## I. ÜMUMİ MÜDDƏALAR [2]

1. Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondu (bundan sonra – Dövlət Standartlar Fondu) – standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində sənədlər məcmusudur.

2. Dövlət Standartlar Fondu – Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* tərəfindən – nazirlik və idarələrlə, təsərrüfat fəaliyyətilə məşğul olan subyektlərlə, ictimai birliklərlə, standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə beynəlxalq və xarici təşkilatlarla qarşılıqlı əlaqə şəraitində yaradılır və aparılır. [3]

3. Dövlət Standartlar Fondunun tərkibinə – nazirlik və idarələrin fəaliyyət göstərdikləri sahələrə aid standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə nazirlik və idarə standartlarının məcmusundan ibarət informasiya fondları daxildir.

4. Standartların informasiya fondları nazirlik və idarələr tərəfindən yaradılır və aparılır.

5. Dövlət Standartlar Fondu informasiya ehtiyatlarının yaradılması, onların saxlanmasının təşkilini, uçotunu həyata keçirir və Respublika Standartlar Fondu sənədlərindən vətəndaşların, cəmiyyətin və dövlətin mənafeyi üçün hərtərəfli istifadə olunmasını təmin edir.

6. Dövlət Standartlar Fondunun fəaliyyəti respublika büdcəsinin vəsaiti, Respublika İcra Hakimiyyəti orqanlarının, təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərin, ictimai birliklərin və Dövlət Standartlar Fondundan informasiya və sənədlərin surətlərinin alınmasında maraqlı olan fiziki şəxslərin vəsaitləri hesabına maliyyələşdirilir.

## II. DÖVLƏT STANDARTLAR FONDUNUN STRUKTURU VƏ VƏZİFƏLƏRİ

7. Dövlət Standartlar Fondu:

Standartlaşdırma üzrə Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* Standartların Baş İnformasiya Mərkəzindən;

nazirlik və idarələrin ixtisaslaşdırılmış təşkilatları, yaxud təşkilatlarının (müəssisələrinin) struktur bölmələrinin standartlar üzrə informasiya mərkəzlərindən ibarətdir.

8. Standartların Baş İnformasiya Mərkəzi:

Dövlət Standartlar Fondunun tərtib olunmasını və aparılmasını təşkil edir;

Dövlət Standartlar Fondu sənədləri haqqında mərkəzləşdirilmiş uçot aparır;

standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində beynəlxalq (regional) təşkilatlarla qarşılıqlı əlaqə saxlayır;

nazirlik və idarələrin standartlar informasiya mərkəzlərinin fəaliyyətini əlaqələndirməyə dair təkliflər hazırlayır və onlara təşkilati-metodik rəhbərliyi həyata keçirir.

Dövlət Standartlar Fondunun sənədləri barədə informasiya ilə və Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* Baş İnformasiya Mərkəzi sənədlərinin surətləri ilə istifadəçilərin təminatını təşkil edir.

Standartların Baş İnformasiya Mərkəzinin vəzifələri, funksiyaları, strukturu, hüquqları Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* tərəfindən təsdiq olunan əsasnamə ilə müəyyən edilir.

9. Nazirlik və idarələrin standartlar informasiya mərkəzləri:

nazirlik və idarə standartları informasiya fondları sənədlərinin komplektləşdirilməsini və saxlanılmasını həyata keçirirlər;

Standartların Baş İnformasiya Mərkəzi ilə qarşılıqlı əlaqədə işləyir, ona nazirlik və idarələrin standartlar informasiya fondlarının sənədləri haqqında sorğu və biblioqrafik məlumat verirlər;

nazirlik və idarələrin standartlar informasiya fondlarının sənədləri və onların surətləri haqqında informasiya ilə istifadəçilərin təmin olunmasını təşkil edirlər.

Standartlar informasiya mərkəzlərinin vəzifələri, funksiyaları, struktur və hüquqları nazirlik və idarələr tərəfindən təsdiq olunan əsasnamələrlə müəyyən edilir.

10. Dövlət Standartlar Fondunun fəaliyyət prinsiplərini müəyyənləşdirmək üçün və standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə sənədlər haqqında informasiyadan istifadə edənlərlə onun qarşılıqlı əlaqəsini təmin etmək sahəsində tövsiyələr işləyib hazırlamaq üçün Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* Standartların Respublika Fondu Şurasını (bundan sonra – Şura) yaradır.

Şura nazirlik və idarə nümayəndələrindən təşkil edilir və ona Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi baş direktorunun müavini başçılıq edir.

Şura və onun şəxsi heyəti haqqında əsasnamə əlaqədar nazirlik və idarələrlə razılaşdırıldıqdan sonra Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* tərəfindən təsdiq olunur.

## III. DÖVLƏT STANDARTLAR FONDUNUN İNFORMASİYA EHTİYATLARININ YARADILMASI VƏ ONLARDAN İSTİFADƏ QAYDALARI

11. Yaradılma mənbəyindən, ifadə növündən və saxlanma yerindən asılı olmayaraq standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə sənədlərin Dövlət Standartlar Fondu sənədlərinə aid edilməsi, həmçinin fondun həmin sənədlərlə komplektləşdirilməsi qaydalarını Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* müəyyən edir.

12. Dövlət Standartlar Fondu aşağıdakı sənədlərlə komplektləşdirilir:

məhsulun və xidmətlərin standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində normativ aktları, dövlət reyestrləri, qayda və tövsiyələrilə;

dövlət standartları və onların layihələri, respublika texniki-iqtisadi informasiyalarının təsnifatları ilə;

sahə standartları, elmi-texniki, mühəndis cəmiyyətləri və sair ictimai birliklərin standartları haqqındakı informasiyalarla;

məhsul və xidmətlərin standartlaşdırılma, metrologiya və sertifikatlaşdırma sahəsində beynəlxalq müqavilələri, beynəlxalq (regional) təşkilatların standartları, standartlaşdırma üzrə qaydaları, norma və tövsiyələrilə, xarici ölkə standartlarına dair sənədlərlə;

nazirlik və idarələrin standartlara dair informasiya fondunun sənədləri haqqında biblioqrafik və başqa informasiyalarla.

13. Nazirlik və idarələrin standartlara dair informasiya fondu nazirlik və idarələrin öz səlahiyyətləri dairəsində standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə hazırladıqları sənədlərlə, həmçinin həmin nazirlik və idarələrin müəyyən etdikləri başqa sənədlərlə komplektləşdirilir.

14. Dövlət Standartlar Fondunun sənədləri barədə informasiya Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* informasiya nəşrlərində müntəzəm olaraq dərc olunur.

Dövlət Standartlar Fondunun sənədləri və onların surətləri haqqında informasiya almaq üçün onlardan istifadə edənlərin müraciətləri Standartların Baş İnformasiya Mərkəzinə, yaxud nazirlik və idarələrin standartlara dair informasiya mərkəzlərinə göndərilir.

15. Standartlara dair Baş İnformasiya Mərkəzi və nazirlik və idarələrin standartlara dair informasiya mərkəzləri istifadəçiləri təmin edirlər:

Dövlət Standartlar Fondunun sənədləri haqqında informasiya ilə (sənədlərin mövcudluğu, onların qüvvədə olma müddəti, sənədlərin dəyişilməsi, onların əvəz edilməsi və ləğv olunması haqqında);

sənədləri işləyib hazırlayanlar haqqında informasiya ilə;

sənədlərin surəti ilə.

Göstərilən informasiya və sənədlərin surətləri təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektlərə, ictimai birliklərə və fiziki şəxslərə müqavilə əsasında verilir.

16. Dövlət Standartlar Fondunun pullu xidmət göstərilməsi sahəsindəki fəaliyyəti nəticəsində əldə olunan gəlir Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak*

*Bazarına Nəzarət Dövlət Agentliyi,* nazirlik və idarələr tərəfindən Dövlət Standartlar Fondunun texniki bazasının inkişafına yönəldilir.

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193)**
2. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)**
3. 30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **()** ilə "Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları"nın 2-ci, 11-ci, 14-cü, 16-cı bəndlərində, 7-ci bəndinin ikinci abzasında, 8-ci bəndinin altıncı və yeddinci abzaslarında, 10-cu bəndinin birinci və üçüncü abzaslarında ismin müvafiq hallarında "**Agentliyi**" sözü ismin müvafiq hallarında "**Komitəsi**" sözü ilə əvəz edilmişdir.

[2] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193)** ilə "Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları"nın 2-ci bəndində, 7-ci bəndinin ikinci abzasında, 8-ci bəndinin altıncı və yeddinci abzaslarında, 10-cu, 11-ci, 14-cü və 16-cı bəndlərində "**Azərbaycan Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**) ilə “Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları”nda mətn üzrə ismin müvafiq hallarında “**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi”** sözləri ismin müvafiq hallarında “**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**” sözləri ilə əvəz edilmişdir.